# Fondun Nizamnaməsi

**„Kindeslächeln Berlin-Baku“**

**(2B-Kind)**

## § 1 Ad və yerləşdiyi yer

1. Fond, „Kindeslächeln Berlin-Baku“(„Berlindən-Bakıya uşaq təbəssümü“) (qısaldılmış: 2B-Kind) adını daşıyır.

2. Fond, reyestrdə rəsmi qeydiyyatdan keçməlidir. Qeydiyyatdan keçdikdən sonra "e.V. (rəsmi qeydiyyatdan keçmiş fond)" sonluğundan istifadə edəcəkdir.

3. Fondun nizamnamə ünvanı Blankenheim-da yerləşir.

4. Fondun iş ili təqvim ili sayılır.

## § 2 Fondun məqsədləri

1. Fond, Vergi Məcəlləsinin (VM) "vergi tutmada imtiyazlı məqsədlər" bölməsi daxilində yalnız və birbaşa xeyriyyə məqsədləri güdür.

2. Fondun məqsədi, VM-nin 52-ci maddəsinin 2-ci bəndinin 4 və 7 saylı yarımbəndlərinə əsasən gənclərə dəstək, onların təlim-tərbiyəsinə dəstək, orta və peşə təhsilinə dəstək, eyni zamanda bütün dünyadan, xüsusilə də Azərbaycandan olan ehtiyaclı uşaqlar və onların ailəsinə maddi dəstəkdir. 2B-Kind, fondun məqsədinə çatmasına birbaşa və ya dolayısı ilə lazım olacağı təqdirdə başqa fondlarda və ya cəmiyyətlərdə iştirak etmək, törəmə müəssisələr yaratmaq, şirkətlərin səhmlərini əldə etmək, idarə etmək və satmaq səlahiyyətinə malikdir.

3. Nizamnamənin məqsədi xüsusilə aşağıdakı formada həyata keçirilir:

    a. Dünyada, xüsusən də Azərbaycanda ehtiyaclı uşaqlara dəstək;
    b. Ehtiyacı olan uşaqlı ailələrə, xüsusən də valideynlərindən birini və ya hər ikisini itirmiş uşaqlara dəstək;
    c. Uşaq qoruma müəssisələrinin, uşaq bağçalarının, uşaq oyun müəssisələrinin, məktəblərin, xəstəxanaların, uşaq evlərinin və s. maliyyələşdirilməsi, tikintisi və ya işlədilməsi;
    d. Dünyada uşaq hüquqları və uşaqların müdafiəsi sahəsində elmi və məlumatverici tədbirlərin keçirilməsi;
    e. Uşaqların müdafiəsi üçün yaradılmış olan digər təşkilatlar ilə əlaqələrin qurulması və dərinləşdirilməsi;

   f. Fondun yuxarıda göstərilən məqsədləri ilə ziddiyyət təşkil etməyən digər fəaliyyətlər.
4. Fond, ilk növbədə iqtisadi məqsədlər güdmür və öz maddi marağı üçün fəaliyyət göstərmir.

5. Fondun maddi vəsaiti yalnız qanuni məqsədlər üçün istifadə edilə bilər. Üzvlər bu fondun hesabından heç bir qarşılıqsız ödəniş əldə etmirlər.

6. Bundan əlavə, fondun məqsədinə zidd olan xərclər və ya yüksək əmək haqqının ödənilməsi qəbul edilə bilməz.

7. Fond, VM-nin 58-ci maddəsinin 2-ci bəndini əsas tutaraq digər qeyri-kommersiya təşkilatlarına vəsait xərcləmək hüququna malikdir.

## § 3 Üzvlük

1. Aşağıdakı şəxslər fonda üzv ola bilərlər:
   a. Fiziki şəxslər
   b. Hüquqi şəxslər

2. Üzvlük üçün yazılı müraciət edilməlidir. Müraciət edən şəxslərin qəbulu haqqında qərarı idarə heyəti verir. Müraciətin rədd edilməsi hər hansı bir əsaslandırma tələb etmir.

## § 4 Fövqəladə üzvlük

1. § 2-nin 3-cü bəndinə uyğun olaraq xüsusi əhəmiyyətli xidmət göstərən fiziki şəxslər ümumi yığıncaq tərəfindən fövqəladə üzvlər, yəni fəxri üzvlər və ya müvafiq üzvlər kimi təyin edilə bilərlər.

2. Ümumi yığıncaq, bu təyinat barəsində yalnız idarə heyətinin yekdilliklə qərar verdiyi təklif əsasında qərar verirlər. Ümumi yığıncağın qərarının qəbulu üçün yığıncaqda iştirak edən üzvlərin dörddə üç səs çoxluğu tələb edilir.

## § 5 Üzvlük haqqı

1. Fondun üzvləri üzvlük haqqı ödəməlidirlər. Üzvlük haqqının məbləği və ödəmə tarixi ümumi yığıncaq tərəfindən müəyyən edilir.

2. Fövqəladə üzvlərdən heç bir üzvlük haqqı tələb edilmir.

3. İdarə heyəti bəzi hallarda üzvlük haqlarının alınmaması, haqlardan azad edilmə və ya təxirə salınması ilə bağlı qərar qəbul edə bilər.

## § 6 Üzvlüyün sonlandırılması

1. Üzvlük bitir:
   a. şəxs vəfat etdikdə;
   b. cəmiyyəti fövqəladə üzvlər üçün hər zaman, daimi üzvlər üçün isə maliyyə ilinin bitməsindən üç ay əvvəl bildiriş təqdim edərək tərk edərək; bildiriş yazılı şəkildə idarə heyətinə təqdim edilməlidir;
   c. Mühüm bir səbəb olduğu təqdirdə, cəmiyyətdən xaric edilərək, xüsusilə əgər üzv şəxs
      i. kobud şəkildə və ya yazılı xəbərdarlığa baxmayaraq 2B-Kind nizamnaməsini və mənafelərini və ya fondun qətnamələrini və ya əmrlərini dəfələrlə pozarsa; bu halda xaric etmə idarə heyətinin qərarı ilə həyata keçirilir;
      ii. 3 aydan çox müddətə üzvlük haqqı ödənilmədiyi və xəzinədar tərəfindən ikinci yazılı xəbərdarlıq edildiyi halda orada göstərilən müddətdə ödəmə həyata keçirilmədiyi halda; bu halda kənarlaşdırma idarə heyətinin qərarı ilə həyata keçirilir;

2. Üzvlüyün sonlandırılması ilə üzv 2B-Kind fondunu tərk edir. Fondu tərk edən üzv, fondun əmlakına qarşı heç bir iddia qaldıra bilməz.

## § 8 Fondun icra orqanları

Fondun icra orqanları aşağıdakılardır:
1. Ümumi yığıncaq
2. İdarə heyəti

## § 9 Ümumi yığıncaq

1. Ümumi yığıncaq ildə bir dəfə təşkil olunur. Bundan əlavə, fondun maraqlarına uyğun olaraq ehtiyac varsa və ya üzvlərin ən azı 1/10 hissəsi məqsəd və səbəblər göstərilməklə yazılı olaraq görüş tələb edərsə, ümumi yığıncaq çağırılmalıdır.

2. Ümumi yığıncaq, idarə heyəti tərəfindən yazılı və ya mətn şəklində elektron poçt və ya WhatsApp və ya Facebook-çat vasitəsi ilə görüş səbəbləri haqqında məlumat verilərək çağırılır. Hər bir ümumi görüşün çağırılması üçün dəvət müddəti dörd həftədir.

3. İclasa sədrliyi iki sədrdən biri və ya hər ikisi birlikdə edir. Hər iki sədr iştirak edə bilmədiyi halda, yığıncağa iki müavindən biri rəhbərlik edir. Nə sədr, nə də müavinlərdən heç biri iştirak etmirsə, ümumi yığıncaq tərəfindən bu görüş üçün sədrlik edən şəxs seçilir.

4. Əgər katib iştirak etmirsə, ümumi yığıncaq tərəfindən iştirak edən üzvlər arasından onu əvəz edən bir nəfər seçilir.
5. Ümumi yığıncaq onlayn olaraq da (məsələn, Zoom proqramından istifadə etməklə) baş tuta bilər. Normal qaydada çağırılmış hər bir ümumi yığıncaq, ümumi üzvlərin ən azı on beş faizinin iştirak etdiyi təqdirdə qərar vermə səlahiyyətli sayılır. Yığıncaq qərar vermək səlahiyyətli sayılmadıqda, sədrlik edən şəxs yığıncağı dağıdır. Bundan sonra idarə heyəti dərhal, hər hansısa müddəyə riayət etmədən yeni bir ümumi yığıncaq çağırır və bu yığıncaq iştirak edənlərin sayından asılı olmayaraq qərar vermək səlahiyyətinə malikdir.

6. Ümumi yığıncağın qərarları səs çoxluğu ilə qəbul edilir. Əsasnamədə və ya fondun məqsədində hər hansı bir dəyişiklik etmək üçün yığıncaqda iştirak edən üzvlərin ¾ etibarlı səs çoxluğu tələb olunur.

7. Aşağıdakı qərarlar üçün də ¾ səs çoxluğu tələb olunur: uşaq qoruma müəssisələrinin, uşaq bağçalarının, uşaq oyun təsislərinin, məktəblərin, xəstəxanaların, yetim uşaq evlərinin yaradılması və ya istifadəsi.

8. Bundan əlavə, ümumi yığıncağın qərarlarına dair protokol hazırlanmalıdır. Protokol, yığıncağın sədri və katib tərəfindən imzalanmalıdır.

9. Aşağıdakı şəxslər ərizə verə bilərlər:
   a. hər bir üzv
   b. idarə heyəti

10. Ərizələr, ümumi yığıncaqdan üç həftə öncə fondun idarə heyətinə təqdim edilməlidir. Ərizə gec təqdim edildikdə, ona yalnız onun təciliiliyi 2/3 səs çoxluğu ilə təsdiq edildiyi halda baxılır . Bu qayda, həm də nizamnaməyə dəyişikliklərə də şamil edilir.

## § 10 İdarə heyəti

1. İdarə heyəti aşağıdakılardan ibarətdir:

- iki sədr
- sədrin birinci müavini
- sədrin ikinci müavini
- xəzinədar
- katibə

- digər iki nəfər üzv

2. İdarə heyəti, işi nizamnaməyə və ümumi yığıncağın qərarlarına uyğun olaraq aparır. Qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Verilmiş səs sayı bərabər olduqda, sədrlərin səsi və ya iştirak etmədikləri təqdirdə və ya fərqli səslər verdikləri halda birinci müavinin və ya o da iştirak etmirsə ikinci müavinin verdiyi səs əsas götürülür. İdarə heyəti müəyyən məqsədlər üçün komitələr qurmaq səlahiyyətinə malikdir. İdarə heyəti məcburi qaydalar müəyyən edə bilər.

3. Fond, məhkəmədə və məhkəmədən kənar aşağıdakı şəxslər tərəfindən təmsil olunur:
   a. idarə heyəti sədrinin biri tərəfindən tək olaraq
   b. və ya fondun sədr müavinlərindən biri ilə idarə heyətinin üzvlərindən biri tərəfindən birlikdə

4. İdarə Heyətinin üzvlərinin hər biri üç il müddətinə seçilir. Yeni idarə heyəti seçilənə qədər onlar vəzifələrində qalırlar.

## § 11 Xəzinə auditoru

1. Ümumi yığıncaq, idarə heyətinə və ya komitəyə üzv olmayan iki şəxsi üç il müddətinə kassaya nəzarət üçün auditor seçə bilər.

2. Auditorlar, maliyyə ilində ən azı bir dəfə fondun hesab kitabları və sənədləri daxil olmaqla fondun xəzinə və bank hesablarını həm obyektiv həm də hesablama baxımından yoxlamalı və yazılı şəkildə idarə heyətinə hesabat verməlidir.

3. Auditorlar ümumi yığıncağa yoxlanış hesabatı təqdim edirlər və xəzinə əməliyyatlarının düzgün aparıldığı təqdirdə idarə heyətinin məsuliyyətdən azad edilməsi ilə bağlı ərizə verirlər.

## § 12 Fondun ləğvi və aktivlərinin toplanması

1. Fond, bütün üzvlərin etibarlı səslərinin 3/4 səs çoxluğu ilə ləğv edilə bilər.

2. Fond, hər iki sədr tərəfindən birlikdə və yaxud da müavinlərindən biri və ya xəzinədar ilə birlikdə idarə heyətinin sədri tərəfindən ləğv edilə bilər. Ümumi yığıncaq, fondun digər iki üzvünə ləğv etmə hüququ verə bilər.

3. Fondun ləğvi və ya vergi imtiyazlı məqsədlərinin mövcud olmaması halında, fondun mövcud öhdəliklərini yerinə yetirdikdən sonra geridə qalan aktivləri birbaşa və müstəsna olaraq gəlir mənfəəti daşımayan, xeyriyyəçilik və ya kilsə məqsədləri üçün istifadə etməli olan bir hüquqi şəxsə verilir.

**§ 13 Qüvvəyə minmə**

Nizamnamə, 2B-Kind təşkilatının 09 yanvar 2022-ci il tarixli ümumi yığıncağı tərəfindən hazırkı formada qəbul edilmişdir və dərhal qüvvəyə minir.

Blankenheim, 09.01.2022

1. Elvin Cəbrayıl, LL.M.

2. Dr. Aytən Musayeva

3. Dr. Naibə Allahverdiyeva

4. Kamran Hacılı

5. Aygün Quliyeva

6. Bənövşə Abbasova

7. Nigar van Berkel

8. Mirzə Mütəllimov

9. Güləsər Fullriede

10. Şəhla Rəsulzadə

11. Eltac Əlisoy

12. Dr. Aqşin Umudov

13. PD Dr. Natig Gassanov

14. Mehriban Vəliyeva

15. Ceyhun Vəliyev

16. Dr. Polad Poladlı

17. Zülfiyyə Əbdürəhimova-Karberri

18. Pakizə Tağıyeva

.......................................................................................

(Təsisçi üzvlərin ad və familiyası)